*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 298-303* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.298*

# Aşıqların yeni geyim tərzi haqqında mülahizələr

**Fəridə Mirişova**
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: fmirisova@mail.ru

**Annotasiya.** Aşıq sənətinin tarixi çox qədim zamanlara dayanır. Bu sənətin inkişaf və təşəkkül tarixinə dair kifayət qədər araşdırmalar mövcuddur. Aşıq sənətinin yaranması, inkişafı etnik-mədəni hadisə olmaqla, özündə türk millətinin tarixi keçmişini, qan və gen yaddaşını yaşadır. İstər ozan kimi, istər sufi dərvişlər kimi tanınanda, istərsə də sonrakı mərhələdə – Haqq aşiqi və ya aşıq kimi tanınanda... Aşıq sənəti daim inkişafda və tərəqqidə olmuşdur. Söz, musiqi və rəqs hərəkətlərinin sinkretik vəhdətindən yaranan bu sənət hadisəsi uzun tarixi yol keçmiş, zamanla cilalanaraq daha da təkmilləşmiş və mükəmməlləşmişdir. Son zamanlar aşıq geyim modellərinin yenilənməsi gündəmdədir. Xüsusilə yeni aşıq geyimlərinin hazırlanmasında milli geyim tərzinə üstünlük verilməsi təqdirəlayiqdir. Müşahidələr göstərir ki, aşıqların son illərdə qəbul edilmiş geyim tərzində müasirliklə millilik vəhdət təşkil edir. Bu mənada milli kimliyimizi və milli mədəniyyətimizi qoruyub saxlamaq, milli-mənəvi dəyərlərimizi unutmamaq, soykökümüzə bağlı yeni nəsillər yetişdirmək üçün aşıq sənətini inkişaf etdirmək və yetişməkdə olan gəncliyi bu istiqamətə meyilləndirmək mühümdür. Məqalədə müasir aşıqların geyim tərzindən bəhs olunur.
**Açar sözlər:** aşıq, saz, aşıq sənəti, aşıq geyim tərzi, millilik

**Məqalə tarixçəsi:** göndərilib – 02.07.2024; qəbul edilib – 16.07.2024

# The considerations on the new clothing style of ashugs

**Farida Mirishova**
Institute of Architecture and Art of ANAS
E-mail: fmirisova@mail.ru

**Abstract.** The tradition of Ashug art has roots deep in history, dating back to ancient times. While its emergence and evolution are deeply rooted in ethnic and cultural heritage, Ashug art holds a special place in preserving the historical legacy, bloodline, and ancestral memory of the Turkic nation. This cultural phenomenon, characterised by the harmonious blend of solo performances, music, and dance movements, has undergone a significant historical journey, evolving over time.
Lately, there has been a focus on revitalising the fashion associated with Ashug clothing. Particularly, the decision to adopt a national clothing style in Ashug attire is commendable. It is evident that in recent years, Ashugs have successfully integrated both modernity and their national identity into their clothing styles. In this regard, promoting Ashug art is crucial for the protection of our national identity, the preservation of our cultural heritage, and the transmission of our national and spiritual values to the generations that follow. It is equally vital for nurturing the upcoming generations, fostering a strong connection to our cultural roots, and providing them with the necessary guidance in this direction.
**Keywords:** Ashug, the saz, Ashug art, Ashug clothing style, nationality

**Article history:** received – 02.07.2024; accepted − 16.07.2024

## Giriş / *Introduction*

Aşıq sənətinin tarixi çox qədim zamanlara dayanır. Bu sənətin yaranması, inkişaf etməsi etnik-mədəni hadisə olmaqla, özündə böyük türk millətinin tarixi keçmişini, qan və gen yaddaşını yaşadır. Söz, musiqi və rəqs hərəkətlərinin sinkretik vəhdətindən yaranan bu sənət hadisəsi uzun tarixi yol keçmiş, zamanla cilalanaraq daha da təkmilləşmiş və mükəmməlləşmişdir. Aşıq sənəti nəsillərdən nəsillərə ötürülərək yaşamış, türk millətinin özünəməxsusluğunu, milli ruhunu, milli psixologiyasını və düşüncəsini əks etdirmişdir.

## Əsas hissə / *Main Part*

Aşıq sənətinin özəl xüsusiyyətlərindən biri də onların özünəməxsus geyim formalarının olmasıdır. Ustad aşıqların dediyinə görə, aşıq geyim forması təsadüfən ortaya çıxmamış, həmin geyimlər özünəməxsus xüsusiyyətləri ilə həmişə diqqət çəkmişdir. Aşıqlardan bəzilərinin dediyinə görə, xüsusi aşıq uniforması geyinəndə onlar daha rahat və çevik hərəkət edə bilirlər. Məlum olduğu kimi, Sovetlər dövründə aşıqların xüsusi geyim tərzi vardı. Uzunboğazlı əsgər çəkməsi formasında çəkmələri, uzun buxara papaqları, boz rəngli qalın şinel parçadan hazırlanmış aşıq geyimləri – uzunqollu, yaxası düyməli köynəklər, ayaqları dar, yuxarı hissəsi geniş şalvarlar aşıqların geyim tərzi kimi qəbul edilmişdi. Çox zaman üç gün – üç gecə uzun müddət ayaqüstə saz çalıb, dastan söyləyən aşıqların ayaqlarının şişməməsi üçün onların uzunboğazlı çəkmə geyinməsi daha məqsədəuyğun hesab edilmişdir. Həmçinin bədən temperaturunun tənzimlənməsi, yarana biləcək digər sağlıq problemlərinin qarşısını almaq üçün aşıq şalvarlarının ayaq hissəsinin dar olması uyğun bilinmişdir. Ayaqlarda yarana biləcək damar problemlərinin qarşısını almaq üçün çəkmə geyinmək daha əlverişli sayılmışdır. Həm də məlumdur ki, əvvəllər aşıqlar məclislərə gedərkən sazları çiynində, at üstündə gedirmişlər. Elə gün olurmuş ki, onlar bir şəhərdən digər şəhərə və ya kəndə getmək üçün günlərlə yol gedir, xeyli məsafə qət edirmişlər. Bu zaman ayaqlarının şişməməsi, qışda, soyuqda don vurmaması üçün belə uzunboğaz çəkmələrin geyilməsi məqsədəuyğun hesab edilmişdir. Kişi aşıq geyim modelində baş örtüsü olaraq papaq qoyulması vacibdir. Məlumdur ki, “XX yüzilliyin əvvəllərinədək papaq kişilərin baş geyimi olmaqla yanaşı, həm də simvol sayılmışdır, cəsarət, ləyaqət və şərəf rəmzi hesab olunmuşdur. Hətta bir kişinin papağının oğurlanması onun sahibinə qarşı düşmən hücumu kimi qiymətləndirilirdi. Keçmiş zamanlarda kişilər istənilən halda papağı başlarından çıxarmırdılar. Ümumiyyətlə, ictimai yerlərdə baş geyimi olmadan görünmək rüsvayçılıq kimi dəyərləndirilirmiş” [3, s.137]. Bəzi aşıqlar isə başlarına kip papaq qoymalarının səbəbini belə qeyd edirlər ki, deyişmə zamanı zil səslə oxuma nəticəsində baş-beyin hissəsində damarların partlamaması, zədələnməməsi üçün kip papaq qoyurmuşlar. Geyindikləri düyməli köynəklərin üzərindən bellərinə vurduqları enli, sıx kəmərlərin onların onurğasına dayaq verdiyini, bel sümüklərini möhkəm, qamətlərini şux tutmasına səbəb olduğunu qeyd edirlər. Bütün bu qeyd etdiyimiz geyim tərzi aşıqların Sovet dövründə geyindiyi model idi.

Son dövrlərdə Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlının televiziya kanallarından birinə verdiyi müsahibədən də anlaşıldı ki, aşıqların Sovet dövründəki geyim modelləri tamamilə sıradan çıxmış, əvəzində yeni, müasir geyim modelləri hazırlanması uyğun görülmüşdür. Yeni aşıq geyim modelləri milli rəqs sənətimizin geyim modellərinə uyğun tərzdə hazırlanmışdır. “Xalqımızın mədəniyyəti və bunun tərkib hissəsi olan milli geyimimiz dünya xalqlarının milli geyimləri arasında ən gözəl

və maraqlı nümunələr kimi tanınır. Yüzilliklər boyu formalaşan Azərbaycan ənənəvi geyimi, demək olar ki, Azərbaycanın bütün ərazisində əsas elementlərinin genetik tamlığı ilə seçilir" [2, s.26]. Milli rəqslərimizin ifası zamanı rəqqaslarımızın istifadə etdiyi milli geyimlərin rahatlığı, ayaq və digər bədən üzvlərinin sərbəst hərəkət etdirilməsi baxımından onların elastikliyinin vacibliyi, həmçinin zahiri cəhətdən də estetik görüntüsü vacibdir.

Bu sadaladığımız parametrləri eynilə aşıq geyim tərzinə də aid edə bilərik. Əslində yeni model kimi qəbul edilən aşıq geyim tərzi rahat və elastik olmaqla yanaşı, həm də xalqımıza məxsus qədim milli rəqs geyim formasını və milli naxışlarımızı, milli simvol və atributlarımızı özündə əks etdirməkdədir. "Milli geyimlərimiz xalqımızın bədii zövqünü, onun maddi-mədəniyyət və məişət ənənələrini yaşadır. Əsrlər boyu yaranmış və inkişaf etdirilmiş milli geyimlərimiz xalqımızın geyim mədəniyyətini yaşadan canlı salnamədir" [1, s.11]. Yaxası düyməli, boynu örtülü və bədənə kip oturan köynəklər müasir aşıqların geyim tərzinin əsas atributlarındandır. Çox da hündür olmayan papaq, yaxa hissəsində buta naxışları təsvir olunmuş orta uzunluqda olan çuxalar müasir aşıqların yeni geyim tərzi kimi qəbul edilmişdir. Yeni aşıq geyim tərzində əsgər çəkmələrini xatırladan çəkmələrdən və qəlfeyi, darbalaqlı aşıq şalvarlarından imtina edilmişdir. Hazırda kişi aşıqların geyimlərində ənənəvi şalvarlardan istifadə olunur ki, cəld ayaq hərəkətlərilə eyni anda saz ifa edən zaman onların çevik hərəkət etməsinə mane olmasın.

Aşıqlar üçün ciddi ayaqqabı modeli, klassik şalvar, yaxası düyməli, milli cizgilərlə – butalarla bəzədilmiş aşıq köynəyi və üstündən yenə də üzərində milli naxışlar, butalar əks olunmuş çuxanın geyilməsi aşıq geyim modeli kimi qəbul edilmişdir. Aşıqların yeni geyim tərzində uzun, hündür papaq qoyulmasının əvəzində hündürlüyü əvvəlkindən daha qısa olan papaqların istifadəsi məsləhət görülmüşdür. Aşıq qadınlar üçün də yeni geyim modeli hazırlanıb. Əlvan parçalardan hazırlanmış aşıq qadın geyimləri də xalqımızın milli geyimlərini xatırladır. Qadınların geyindiyi uzunətəkli əlbisələrin üzərindən ənənəvi olaraq bel kəməri bağlanır, başlarına araqçın qoyulur. Aşıq qadınların geyimləri də milli rəqs geyimlərinə uyğun şəkildə hazırlanmışdır. "Qadın rəqs geyimləri bir neçə elementdən ibarət olan (köynək, çiyin geyimi – arxalıq, çəpkən, ləbbadə və s.) geyim dəsti konstruktiv quruluşu stilizə olunaraq tam biçilmiş donlarla əvəz olunur... İpək köynəklər və üst çiyin geyimi olan arxalıq bant, krujeva və büzmə haşiyələrlə birləşdikdə tamamilə yeni ahəng yaradır" [2, s.26]. Qeyd edək ki, aşıqların son illərdə qəbul edilmiş müasir geyim tərzində müasirliklə millilik vəhdət təşkil edir.

Son zamanlar aşıq geyim modellərinin yenilənməsi, xüsusilə, aşıq geyim tərzinin yenidən işlənib hazırlanmasında ənənəvi xalq geyimlərinə, milli geyim tərzinə üstünlük verilməsi təqdirəlayiqdir. Müşahidələr göstərir ki, aşıqların son illərdə qəbul edilmiş aşıq geyim tərzində milli rəqsimizin geyim modellərinə uyğunluq çoxdur, çünki hər iki geyim modeli ənənəvi xalq geyimləri əsasında hazırlanmışdır. Bu geyimlərdə etnik özəlliklər, çoxəsrlik ənənələr, milli mədəniyyətimizin dərin köklərinə bağlılıq yaşayır.

## Nəticə / *Conclusion*

Mədəniyyətmizin mühüm bir hissəsini təmsil edən aşıq sənəti hər dövrün şərtlərinə uyğun olaraq dəyişib, inkişaf edib. Kütləvi informasiya vasitələrinin təşkil və texnologiyanın inkişafı kimi digər səbəblər də aşıq sənətini dövrün tələbinə uyğunlaşmağa məcbur edir. Lakin milli kimliyimizi və milli mədəniyyətimizi qoruyub saxlamaq, milli-mənəvi dəyərlərimizi unutmamaq, soykökümüzə bağlı yeni nəsillər yetişdirmək üçün aşıq sənətini inkişaf etdirmək və yetişməkdə olan gəncliyi bu istiqamətə meyilləndirmək mühümdür. Müasir dövrdə aşıqlarımızın geydiyi milli geyimlər ulu ozanlarımızın xəyali obrazını özündə əks etdirməklə bərabər, həm də onların ənənəvi mahiyyətini, ruhunu dərk etməyə, mədəniyyətimizin ulu kökləri ilə bağlılığı anlamağımıza imkan verir. Düşünürük ki, bununla əlaqədar dövlət səviyyəsində mühüm qərarların verilməsi, xüsusən də orta ixtisaslı musiqi məktəb-

lərində, Musiqi Akademiyasında, İncəsənət və Mədəniyyət Universitetində aşıq sənətinin daha geniş tədris və təbliğ edilməsi ilə bağlı əsaslı addımlar atılması vacibdir. Xüsusilə, gənc aşıqların yaradıcılığında peşəkar meyarlarla yanaşı, milli geyim mədəniyyətinin yaşadılması ənənə halını almalıdır. Bu mənada aşıqların nəinki el şənliklərində, eləcə də dövlət tədbirlərində və efir məkanlarında auditoriya qarşısına məhz milli geyimdə çıxması, bu ənənənin möhkəmlənməsi və gələcək nəsillərə ötürülməsi baxımından faydalı ola bilər.

**Ədəbiyyat / *References***


1. Hüseynov, Hüseynağa. Səhnə hərəkəti. – Bakı, 1985.
2. İbadova, Gülnarə. Azərbaycanın müasir folklor qruplarında milli geyim ənənələri (Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı). – Bakı, 2013.
3. Rəhmanlı, Əhsən, Bəşirov, Xanlar. Milli rəqs sənəti. – Bakı, 2019.


## Взгляд на новый стиль одежды ашыгов


**Фарида Миришли**
Институт архитектуры и искусства НАНА
E-mail: fmirisova@mail.ru



**Резюме.** История искусства ашыгов уходит корнями в древние времена. Исследований по истории развития и становления этого искусства достаточно. Создание и развитие искусства ашыгов, являясь этнокультурным событием, сохраняет историческое прошлое, генетическую память тюркских народов. Это художественное событие, рожденное из синкретического единства слова, музыки и танцевальных движений, прошло долгую историю, оттачивалось и совершенствовалось с течением времени. Будь то тогда, когда он был известен как озан, или как суфийский дервиш, или на более позднем этапе – когда он был известен как ашыг истины, искусство ашыгов постоянно развивалось и прогрессировало. В последнее время обновление популярных моделей одежды ашыгов привлекает внимание. Особенно похвально при составлении одежды ашыгов отдавать приоритет стилю национальной одежды. Наблюдения показывают, что современность и национальность объединены в стиле одежды ашыгов. В этом смысле важно сохранять нашу национальную самобытность и национальную культуру, не забывать наши национально-нравственные ценности, развивать искусство ашыгов, чтобы воспитать новые поколения, связанные с нашими предками, склонить к этому подрастающую молодежь.


**Ключевые слова:** ашыг, саз, ашыгское искусство, ашыгский стиль одежды, национальность



**Şəkil 1.** Sovet dövrünün aşıq geyimi




**Şəkil 2.** Müasir qadın aşıq geyimi



**Şəkil 3.** Müasir kişi aşıq geyimi



**Şəkil 4.** Müasir qadın aşıq geyimi